

GÜLŞƏN MUSTAFA

## Bir günün iki üzü

Yenə də axşam olar,
Zülmət boğar işığı.
Səhər yenə yenidən,
Zülmət doğar işığı.

Ya düşmən, ya sevgili
Bir - birindən gizlənən.
Ya küsüşüb ayrılan,
Ya da yolu gözlənən.

Biri nur, biri zülmət,
Bir günün iki üzü.
Ya zülmət qovar onu,
Ya qaçar işıq özü.

Zülmətdə günahımız,
Ruhumuzu qaralar.
Sabah aydınlananda,
Qəlbimizi yaralar...

## İtirmişəm

Taleyimi gözlərinin,
Qarasında itirmişəm.
Arzuları ürəyimin,
Yarasında itirmişəm.

Ruhumdakı məhəbbəti,
Səndən qalan müsibəti,
Cəhənnəm ilə cənnətin,
Arasında itirmişəm.

Ancaq verdin sən möhnəti...
Aradakı bu hörməti.
Heç bilmədim bu söhbətin
Harasında itirmişəm.

## Kimi

Sən niyə bu qədər yad oldun mənə,
Axı yaxındasan bir nəfəs kimi.
Bəs niyə çatmırsan ciyərlərimə?
Nəfəsin duyulur adi səs kimi.

Qəlb evi kiflənir, çəkib göz yaşı,
Təməldən laxlayıb bünövrə daşı.
Sənsiz boş qalıbdı süfrəmin başı,
Durmusan kənarda özgə kəs kimi.

Varla yox arası gedib gəlirsən,
Bağrımın başını oxla dəlirsən.
Bilinmir ağıllı, yoxsa dəlisən,
Elə bir söz de ki, olsun bəs kimi.

Göl idin, çay olub mənə axırdın,
Qarşını alırdım, yenə axırdın.
Könlüm neyləmişdi, onu yaxırdın,
Bu eşq olacaqdı bir həvəs kimi?!

Sevgini qorxudub, gəl, az diksindir,
Nə yaya tənə vur, nə yaz diksindir.
Sən necə sanırsan san, öz işindir,
Mən bunu sanıram sui-qəsd kimi.

## Qəlb sevgiylə dolmayanda

Dərd-azar yurd salar canda,
Sevdiyin, yar olmayanda.
Həyat eşqi olmaz qanda,
Qəlb sevgiylə dolmayanda.

Cana sığmaz yara ruhun,
Boyanar zil qara ruhun,
Çəkər canı dara ruhun,
Qəlb sevgiylə dolmayanda.

Sönər odun, qalar külün,
Yaz günündə solar gülün,
Yaşamaq da olar zülüm,
Qəlb sevgiylə dolmayanda.

## Adına darıxmaq deyirik

Kimsəsizliyimiz gəmirir içimizi,
Tənhalığın soyuğu aparır istimizi,
Gəlsin biri, görsün bizi istəyirik
adına darıxmaq deyirik...

Bir əl yaşlı gözümüzə toxunsun,
Baxsın, qəlbimiz oxunsun.
Səssizliyimizin səsi duyulsun,
Sevincindən su versin,
kədərimiz yuyulsun,
Gəlsin o biri, bizi duysun.
Biz, o birini gözləyirik
adına darıxmaq deyirik...

## Arzu qocalanda kədər olurmuş

Bir ümid, bir arzu gəldik dünyaya,
İl ilə calandı, yaşımız artdı.
Arzumuz körpəcə fidan doğulub,
Nə yazıq başını dərdlərə qatdı.

Susubdu dodağı, nəğmə oxunmur,
Qaçıbdı ilməsi, daha toxunmur.
Yoxdur gözlədiyi, daha yox, ummur,
Küskün arzularım ümidi atdı.

Arzu qocalanda kədər olurmuş,
Gözəl duyğuları hədər olurmuş,
Taleyin qisməti, qədər olurmuş,
Bir arzu ömrünün sonuna çatdı...

## İtib uşaqlığı ruhumun daha

Həyat sıxıntısı bir güllə vurub,
Ruhum yarasında qəlpə daşıyır.
Gözlərim gördüyü haqsızlıqları
Neynəyim, durmadan qəlbə daşıyır?!

İtib uşaqlığı ruhumun daha,
Körpələr gözündə kədər görənnən.
Övladı önündə utanan ata,
Çəkdiyi əzabı hədər görənnən.

Uçur qanadında boz küləklərin,
Bir qar dənəsidir, ölüm səsləyir.
Ya daşa çırpılar, ya torpaq udar,
Bu ölümsüz ruhum ölüm gözləyir.

## Almasız nağıl

Nağıla başladıq bir kəlmə sözlə,
Yazdıq biri vardı, biri yoxları...
Baxdıq o nağıla biz fərqli gözlə,
Bəlkə də qınadı bizi çoxları...

Nağılda yaşadıq, divlə çarpışdıq,
Dönüb göyərçinə sülh də bağladıq.
Köhnə dostlarla da yenə tapışdıq,
Allaha şükr edib şeytan daşladıq.

Yamanla yanaşı Yaxşı da vardı,
Bir Ağatlı oğlan, bir Göyçək Fatma.
Bu igid oğlana o gözəl yardı,
Gəl, bizim nağıla sən kələk qatma.

Hər gecə davamı olsun, bəs necə,
Yumasan gözünü, o davam edə?!
Şəhrizad deyiləm, mən min bir gecə
Söyləyəm, sultanım yuxuya gedə.

Gülşən, yum gözünü, yuxusuz qalma,
Nağıl başlasa da sona çatmadı.
Göydən nağıllara düşər üç alma,
Göy bizim nağıla alma atmadı.

## Nöqtə zamanı

Hər şeyin bir başlanğıcı,
bir də var bitdiyi yer.
Yaxşı, yaman nə varsa
gözündə itdiyi yer.
Arxada acılı, şirinli xatirələr,
Qarşıda həsrət və kədər,
bitirmək çətin nə qədər...
Uzun bir cümlə kimi
yazdım bütün olanı.
Nə sual yeri var, nə nida,
Nöqtə zamanı.

## Qadın dözümü

Dözümlüdür qadınlar
xəyanətə dözər,
yalana dözər.
Saxta gülüşlər öldürər təbəssümünü,
dözər.
Öyrəşər addım - addım səndən getməyə
Bir gün o dözümün yönü dəyişər,
Sənsizliyə dözməyə də öyrəşər...